# İlham ƏLİYEV: Torpaq çəkir insanı

## Ağalıda səmimi, mehriban, tarixi söhbət

*Mən deyirdim ki, biz mütləq qayıdacağıq. Deyirdim ki, öz torpaqlarımıza qayıdacağıq və qayıtdıq. İndi burada yaşayırıq. Sizin də qayıdışınız bunu göstərir ki, keçmiş köçkünlərin hamısı öz doğma torpaqlarına qayıdacaq.*

**İlham ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti
Zəngilan rayonu, Ağalı kəndi
19 oktyabr 2022-ci il.**



**Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın oktyabrın 19-da Zəngilan rayonunun Ağalı kəndində şagirdlər, müəllimlər və kənd sakinləri ilə görüşündən hazırlanmış televiziya materialına baxanda istər-istəməz ürəyimdən belə bir fikir keçdi: Ulu öndər Heydər Əliyevin uşaqlarla, ictimaiyyətlə söhbət eləmək, hər yaşda olan adamla məhz onun özü səviyyəsində danışmaq ənənəsi də uğurla davam etdirilir. Ümummilli liderin həmin keyfiyyəti indi minlərlə soydaşımızın "Mən uşaq olanda Heydər Əliyevlə şəkil çəkdirmişdim" – deməsinə zəmin yaratmışdır.**

### "Sumqayıt da gözəl şəhərdir..."

Diqqətimi çəkən ilk məqamlardan biri bu ilin sentyabrından Ağalı kənd məktəbində oxuyan şagirdlərin əksəriyyətinin buradan əvvəl Sumqayıtda oxuduqlarını deməsi, indi isə Ağalının daha yaxşı olduğunu söyləməsinə münasibət bildirən dövlət başçımızın reaksiyası oldu: "Sumqayıt da gözəl şəhərdir, böyük şəhərdir. Amma buranın, əlbəttə ki, xüsusi gözəlliyi var, təbiət, hava, iqlim..."

Dövlət başçımız xatırlatdı ki, burada həyat qaynayacaq. "Başqa kəndlərdə də evlər tikiləcək, Zəngilan şəhərində də evlər tikiləcək. Ağalı birinci layihədir, siz də azad edilmiş torpaqlara ilk gələn uşaqlarsınız. Şadam ki, böyük həvəslə gəlmisiniz və sizin valideynləriniz də böyük həvəslə gəliblər. Çünki valideynlərin də çoxu, yəqin ki, Ağalını heç görməyib. Onlar da işğal dövründə dünyaya gəliblər. Amma torpaq çəkir insanı".

Cənab Prezident həmin məqamda sanki vətənpərvərlik dərsi keçən müəllim idi. Uşaqlara başa salırdı ki, Vətənin hər qarışı gözəldir, qiymətlidir və biz yurdumuzun hər qarışını sevməli, qorumalı, abadlaşdırmalıyıq.

### Vəzifə gələcəkdə yaxşı vətəndaş olmaqdır

Hamı bilir ki, dövlət başçımız İkinci Qarabağ müharibəsindən sonra qatıldığı bütün tədbirlərdə, qoşulduğu söhbətlərin hamısında şəhidlərimizi və qazilərimizi yada salır, Qələbəyə məhz onların sayəsində nail olduğumuzu deyir. Bu ənənə Ağalıda da davam etdirildi. Şəhid və qazilərimizin həmin görüşdə xatırladılması həm də ona görə vacib idi ki, həmin gün orada iştirak edənlər hələ uzun illər bu görüşü xatırlayacaq, "Prezident bizim buraya qayıtmağımız üçün canını fəda etmiş şəhid olan əsgər və zabitlərimizi də yada saldı" – deyəcəklər.

Dövlət başçımız dedi: "Biz bu torpaqlara qan tökərək qayıtmışıq. Bizim qəhrəman şəhidlərimiz öz canlarını fəda ediblər ki, bax, siz və sizin kimi yüz minlərlə azərbaycanlı öz dədə-baba torpağına qayıtsın. Zaman tez keçir, ancaq artıq böyük quruculuq işləri görülür. Sizin əsas vəzifəniz oxumaqdır, valideynlərin, müəllimlərin sözünə baxmaqdır və gələcəkdə yaxşı vətəndaş olmaqdır".

### "Bizim ev görünür, ikimərtəbəlidir"

Doğrudur, Azərbaycan dövləti qaçqın və köçkünlərimizin həyat şəraitinin, xüsusən, mənzil problemlərinin həll edilməsi üçün dünyanın heç bir ölkəsində analoqu olmayan layihələr icra etmişdir. Onlarca şəhərcik salınmış, minlərlə soydaşımıza həmin şəhərciklərdə mənzil verilmişdir. Ancaq etiraf edək ki, həmin problem tam həll edilməmişdi. Məsələn, Sumqayıtda məskunlaşmış məcburi köçkünlərin bir çoxu hələ də uyğunlaşdırılmış bina və tikililərdə yaşayırdılar.

Bu faktın təsdiqini Mehriban xanım Əliyevanın uşaqlara verdiyi: "Haradadır sizin evləriniz? Buradan görünür sizin evlər?" – sualını cavablandıran bir uşağın sevinc dolu cavabı oldu: " Bəli, bizim ev görünür, ikimərtəbəlidir".

### Ağalıya dünyanın ən qabaqcıl ölkələrindən də qonaqlar gəlirlər

Bir sakin dedi ki, Ağalıda "Kapital Bank", "ASAN xidmət", xəstəxana, "Gil MED" fəaliyyət göstərir. Başqa bir sakin isə fəxrlə yada saldı ki, Ağalıya dünyanın ən qabaqcıl ölkələrindən qonaqlar gəlirlər, çəkilişlər olur. Bu, bizi də sevindirir. Onlar da görürlər ki, biz artıq qayıtmışıq.

Dövlət başçımız sakinləri əmin etdi ki, bütün şəhərlər, kəndlər belə olmalıdır, bu birinci layihədir, davamı da gəlir.

### "Onda sizə mütləq ev verilməlidir"

Dövlət başçımızın və Birinci vitse-prezidentin Ağalıda sakinlərlə görüşü barədə informasiya yayılan kimi sosial şəbəkələrdə yazdılar ki, Prezident Zəngilanda kənd müəlliminə ev verdi.

Söhbət belə oldu. Ağalıda yaradılmış şəraitə görə dövlət başçımıza minnətdarlıq edən qadın sakin dedi ki, hər şey yaxşıdır, əladır: – Düzü, mən hələ ev almamışam.

**Prezident İlham Əliyev:** Eviniz yoxdur hələ?

**Qadın sakin:** Mənə Sumqayıtda ev veriblər, hələ oradayam. İndi deyirlər ki, sizin növbəniz çatanda verəcəyik.

**Prezident İlham Əliyev:** Özünüz Ağalıdansınız?

**Qadın sakin:** Bəli, Ağalıda müəllim işləmişəm.

**Prezident İlham Əliyev:** Onda sizə mütləq ev verilməlidir.

### Vətən torpağı dərmandır

Bu sətirləri qələmə almaq üçün axşam televiziyada baxdığım materialı səhər qəzetdə də oxudum. Çox məmnun oldum. Bu tarixi, açıq söhbətin iştirakçılarının hamısı səmimi, mehriban idi. Ancaq kənd qadınlarından birinin dediyi fikirləri heç zaman unuda bilməyəcəm: "Ayaqlarım tutulmuşdu, həqiqətən, mən buraya gələndən ayaqlarım bir az açılıb, yeriyə bilirəm. Çox şükür, havası da, suyu da gözəldir".

### "Göz yaşı ilə çıxmışdıq, göz yaşı ilə qayıtdıq"

Sonra fikirləşdim ki, sakinlərdən birinin dediyi "Biz bu kənddən qanlı göz yaşları ilə çıxmışdıq, sevinc göz yaşları ilə qayıtdıq!" – ifadəsi yazının sonu üçün daha münasib idi.

**İttifaq MİRZƏBƏYLİ,
"Xalq qəzeti"**